# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №12 (52) • 23.05.2011

AzadliqRadiosu.az®

**Bəxtiyar Hacıyev həbsxanadan məqalə göndərib** səh.2

**Tbilisinin Allahşükür Paşazadəni qəzəbləndirən qərarı** səh.3

«Guardian»: **«Eurovision» Azərbaycanı dəyişdirə bilər** səh.6

Гарри Каспаров: **"Я не забываю, что жил в Баку"** səh.7

**Əl-Qaidə yeni liderini müəyyən edib** səh.9

**Qız Qalasının rəngi ağarır...** səh.11

**Kilsəni məscidə çevirirlər** səh.15

## Avropa Parlamentinin prezidenti Azərbaycan rəsmilərindən nələri eşidib?



səh.4

**J.Buzek hakimiyyətə müxalifətlə bağlı təklif verib**

## Gəncədə toyu yarımçıq qalmış 13 yaşlı gəlin

Biz ora gedəndə Aytən Əliyevanın evlərində xeyli adam var idi. Bir neçə gün əvvəl toy hazırlıqlarına yığışan qohumlar indi yarımçıq qalmış toyun müzakirəsini edirdilər. Qapılarında elə A. Əliyevanın özü məni qarşıladı. Hələ də saçının bəzəyi pozulmamış bu qız jurnalist olduğumu biləndə şəklini çəkməməyimi istəyir. Səsini də yazmağıma razı olmur.

səh.10



**Azərbaycan NATO-dan niyə uzaqlaşır?** səh.11

Обама: **"Стратегия репрессий не пройдет"** səh.7

**Sibir sürgünündən qaçdı, Hitlerə məktub yazdı...** səh.13

# Bəxtiyar Hacıyev həbsxanadan məqalə göndərib




**Mayın 18-də Gəncədə məhkəmənin qərarı ilə 2 il müddətinə azadlıqdan məhrum edilən gənc fəal Bəxtiyar Hacıyev Azərbaycan mediasına siyasi fəal gənclərin üzləşdikləri problemlərlə bağlı məqalə göndərib. "Gənclərə qarşı repressiyanın arxasında nə dayanır?" adlı məqaləsində Bəxtiyar yazır:**

"Gənclərə qarşı repressiyanın arxasında təbii ki, hakimiyyətin qorxusu dayanır. Azərbaycan hakimiyyəti həm ölkə ictimaiyyətinə, həm də beynəlxalq aləmə siyasi müstəvidə cəmi 3 qüvvə olduğunu təqdim etməyə, yalnız bu 3 qüvvə arasında seçim etməyə çalışır:

hazırkı rejim - insan hüquqlarını pozmaq bahasına sabitliyi və xarici maraqları təmin edən qüvvə;

müxalifət - hakimiyyətin repressiyası nəticəsində resursları məhdudlaşan, uzun müddət əleyhinə qara PR aparılmış qüvvə;

radikal dini qruplar - nə ölkə ictimaiyyətinin, nə də beynəlxalq qüvvələrin marağında olan qüvvə.

Dördüncü potensial qrupu isə hakimiyyət əzməyə, daxildə və xaricdə alternativ qüvvə kimi formalaşmasının, qəbul edilməsinin qarşısını almağa çalışır. Çünki bu qrup həm ölkə ictimaiyyəti, həm də beynəlxalq aləm üçün cazibədar alternativ ola bilər".

Bunu martın 4-dən həbsdə olan iki il müddətinə azadlıqdan məhrum edilən gənc fəal Bəxtiyar Hacıyev məqaləsində yazır. Qeyd edir ki, indiki hakimiyyət həm daxili sabitliyi insan hüquqlarını kobud surətdə pozmaq hesabına qoruyur, həm də qarşılıqlı maraqları təmin etmək üçün bu hüquq pozuntularına, korrupsiyaya göz yumulmasını istəyir.

*B. Hacıyev ümid edir ki, gənclər dövlət proqramlarının imkanlarından faydalananda ayıq olacaq, bu proqramların hökumətdən yox, dövlət büdcəsindən maliyyələşdirildiyini xatırlayacaq:* "Eyni zamanda ümid edirəm ki, beynəlxalq təşkilatlar, Azərbaycanda fəaliyyət göstərən diplomatik missiyalar gənclərə qarşı repressiyaya qarşı daha açıq, daha sərt mövqe ortaya qoyacaqlar. Repressiyanın davamına dözümlü yanaşma uzun müddətdə həm ölkəmiz, həm də beynəlxalq aləm üçün geri qaytarıla bilməyən mənfi nəticələr doğura bilər".

# 6 yol polisi işdən çıxarılıb

**Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına görə, rüşvət ittihamlarına görə 11 polis əməkdaşına cəza verilib.**

Mayın 16-da İdarənin saytında yayılan xəbərdə qeyd edilir ki, "yol hərəkəti qaydalarını pozmuş sürücülər barəsində şəxsi maraq müqabilində qanunla müəyyən edilmiş tədbirləri görmədiklərinə, vəzifə səlahiyyətlərini yerinə yetirmədiklərinə, daxili işlər orqanlarında xidmətlə bir araya sığmayan, polis əməkdaşı adına xələl gətirən hərəkətlərə və korrupsiya hüquqpozmasına yol verdiklərinə görə Yol Patrul Xidmətinin 6 əməkdaşı xidmətdən xaric olunub." xidməti vəzifələrinin


Bakıda yol polisi, arxiv şəkil

icrasında nöqsanlara yol vermiş 5 əməkdaş isə intizam məsuliyyətinə cəlb edilib.

Bu ilin əvvəlindən Azərbayanda prezidentin göstərişi ilə ölkədə korrupsiya əleyhinə kampaniya gedir. Həmin kampaniya haqqında ətraflı məlumatlarla burada tanış ola bilərsiniz.

AzadliqRadiosu.az-da "İqtisadiyyat" bölümü:






# Sabirabadda ünvanlı sosial yardım ala bilməyənlər etiraz ediblər

**Mayın 17-də 200 nəfərdən artıq şəxs Sabirabad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin qarşısına toplaşıb. Onlar ünvanlı sosial yardımın gecikdirilməsinə, yardım almaq üçün sənədlərinin qəbul olunmamasına və başqa problemlərə etiraz ediblər. Bu barədə AzadlıqRadiosuna Sabirabad rayon sakinləri məlumat veriblər. Rayon sakini Elçin Səfərov bildirib ki, şikayətçilər iki gündür Sosial Müdafiə Mərkəzinin qarşısına toplaşsalar da, problemlərini dinləyən yoxdur.**

**«HAMI YARDIM ALMAQ İSTƏYİR»**

*Sabirabad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktor əvəzi Əli Məmmədli AzadlıqRadiosuna deyib ki, binanın qarşısına toplaşanlar ünvanlı sosial yardım üçün sənəd təqdim etmək istəyənlər olub:* «Hamı yardım almaq istəyir, elə adamlar var ki, onlara yardım düşmür, onlar da sənəd təqdim edirlər. Qəbul etməyəndə də narazılıq yaranır. Mərkəzin qarşısında da buna görə yığışıblar. Axırda məcbur olub hamısının sənədini götürdük, dağılışıb getdilər».

Sakinlər polis əməkdaşları ilə onların arasında toqquşma olduğunu və bir neçə nəfərin polis şöbəsinə aparıldığını bildiriblər. Sabirabad Rayon Polis Şöbəsinin növbətçi hissəsindən Sosial Müdafiəsi Mərkəzinin qarşısına iki gündür ki, xeyli adamın toplaşdığını bildirsələr də, insident baş verməsini və kiminsə polis şöbəsinə aparılmasını təsdiqləməyiblər.

**_Esmira Cavadova_**

# Tbilisinin Allahşükür Paşazadəni qəzəbləndirən qərarı


Tbilisidə Cümə məscidi

Allahşükür Paşazadə: **"O azərbaycanlılar öz xalqları qarşısında cavab verəcək"**

*Ötən həftə Tbilisidə Gürcüstan Müsəlmanları İdarəsi yaradılması ilə bağlı məlumat yayıldı. Azərbaycan tərəfi belə bir qurumun yaradılmasına sərt reaksiya verdi. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Gürcüstan üzrə nümayəndəsi Hacı Əli Əliyev yeni idarənin məzhəblərarası qarşıdurma təhlükəsi yaradacağını bildirdi. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə isə hadisəni böyük bir siyasi məsələnin birinci addımı adlandırdı. Bu günlərdə Bakıda keçirilən dini mövzuda konfransda o, qeyd etdi ki, bu addımda dini məsələ, sadəcə, pərdə rolunu oynayır:* "Mən 100 faiz bilirəm ki, bunun arxasında "Böyük Ermənistan" planı durur. Özü də çox maraqlıdır ki, Gürcüstandakı bəzi azərbaycanlılar bu məsələdə fəallıq göstərirlər, vəzifədə olan azərbaycanlılar bu gün bu addımı atırlar. Lakin onlar bir gün öz xalqları qarşısında cavab verəcək-


Allahşükür Paşazadə

lər. Xalqımız necə ki, Ermənistandan qovuldu, bu gün bu təhlükə Gürcüstanda da hiss olunur".

**SÖHBƏT MOLLALIQDAN GETMİR**

Qafqaz Müsəlmanları İdarəsinin sədri hesab edir ki, hansısa idarəni yaradıb-yaratmamaq hər bir dövlətin öz işidir. Buna baxmayaraq, bu məsələdə ziyalı sözü öz rolunu oynamalıdır.

**BU QURUMUN YARADILMASINDAN CİDDİ NARAHATLIĞIMIZ VAR**

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hidayət Orucov Gürcüstan Müsəlmanları İdarəsinin yaradılmasını çox gözlənilməz hadisə adlandırıb:* "Ciddi narahatlığımız var. Gürcüstanla Azərbaycan həmişə mehriban qonşu ölkələr, xalqlarımız isə dost və qardaş olublar. Buna görə də belə hadisələr təəssüf doğurur. Çox istərdim ki, bu məsələ ilə bağlı narahatlığımız Patriarx II İlya həzrətlərinə çatdırılsın".

**BU, NƏ ŞEYXÜLİSLAMA, NƏ DƏ ONUN NÜMAYƏNDƏSİNƏ MÜXALİF TƏŞKİLATDIR**

*Gürcüstan Müsəlmanları İdarəsinin üzvlərindən biri, Kvemo-Kartli qubernatorunun müavini Hüseyn Yusubov isə bu təşkilatın ünvanına deyilənləri qəbul etmir. Gürcüstan Azərbaycanlıları Konqresinin sədri olan Hüseyn Yusubov vurğulayır ki, yaradılan bu qurum qeyri-hökumət təşkilatıdır:* "Bu, nə şeyxülislama, nə də onun idarəsinə müxalifdir. Bunun ətrafında elə gülünc ajiotaj yaradılıb ki, adamın doğrudan gülməyi gəlir".

Hüseyn Yusubov deyir ki, yeni yaradılan qurumun əsas missiyası Gürcüstandakı yüzlərlə məscidin dövlət qeydiyyatından keçməsinə yardım etməkdir. Çünki qeydiyyatı olmayan məscidlərin bərpası, təmiri, yenilərinin tikilməsi böyük bir problemə çevrilir. Konqres sədrinin sözlərinə görə, bu vaxta qədər Qafqaz Müsəlmanları İdarəsi Gürcüstandakı məscidlərin təmirinə və bərpasına yardım göstərməyib.

Hüseyn Yusubov deyir ki, məsələni bu formada gündəmə gətirənlər əslində Azərbaycan və Gürcüstan arasındakı dostluq münasibətlərinə ziyan vururlar. Çünki Gürcüstan hökuməti ölkədə yaşayan azərbaycanlılar üçün çox iş görür. Hətta Novruz bayramı dövlət bayramı elan olunub. Azərbaycanlıların dini və milli bayramlarında ölkə rəhbərliyi iştirak edir. Odur ki, H.Yusubov bu məsələdə "erməni barmağının" axtarılmasını yanlış sayır.

***Fərəh Sabirqızı***

# Bakının mərkəzində aksiya

**Mayın 22-də, günün ikinci yarısı Bütöv Azərbaycan Gənclər Təşkilatı və Güney Azərbaycan Milli Oyanış Hərəkatının bir qrup üzvü «Fəvvarələr meydanı» istiqamətindən metronun «Sahil» stansiyasına doğru etiraz yürüşü keçirib.**

«Güney Azərbaycana azadlıq» və digər bu kimi şüarlar səsləndirən aksiya iştirakçılarını «Sahil» metrosu yaxınlığında polis saxlayıb. Onların bir qismi taksilərə oturdularaq Səbayel rayon 39-cu polis bölməsinə aparılıb. 39-cu polis bölməsindən AzadlıqRadiosuna ətraflı məlumat vermək istəməsələr də, faktı təsdiqləyərək saxlanılanların 8 nəfər olduğunu bildiriblər. Saxlanılanlar sonradan sərbəst buraxılıblar.

# Bulvardakı aksiyada gənclər saxlanılıb

Mayın 22-də saat 18 radələrində 30-a yaxın gənc əllərində Bəxtiyar Hacıyev, Cabbar Savalanlı, Rüfət Hacıbəyli və digər həbsdə olan gənclərin şəkillərini tutaraq dənzikənarı parkda gəzişməklə dinc aksiya keçiriblər. Polisin aksiyaya müdaxiləsindən sonra onlar «İlham Əliyevə istefa», «Gənclərə azadlıq» və digər şüarlar səsləndiriblər. 5-ə yaxın gənc saxlanılıb. Aksiyanı müxtəlif siyasi partiya və ictimai təşkilatların gənclərini özündə birləşdirən «Gənc siyasi məhbusların hüquqlarını müdafiə komitəsi» təşkil edib.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun

- **İflic olan xəstə sağalıb**
- İlham Şaban: **Neft xalqa məxsus olsaydi...**
- **Kamal Dərviş BVF-yə direktorluğa ikinci əsas namizəddir**
- **Medvedev 800 jurnalisti niyə yığmışdı**
- **Göyçayda ötürücü qurğulara etiraz**
- **Hədislər üzrə axtarış sistemi yaradılıb**
- **Abşeronun havayı enerjisi**

# Avropa Parlamentinin prezidenti Azərbaycan rəhbərliyindən nələri eşidib?


J.Buzek hakimiyyəti müxalifətlə əməkdaşlığa çağırıb

**AVROPALI QONAĞIN GÖRDÜYÜ UĞURLAR VƏ İSLAHAT EHTİYACI...**

*Azərbaycanda səfərdə olan Avropa Parlamentinin prezidenti Jerzy Buzek hesab edir ki, onun təmsil etdiyi qurumla Azərbaycan arasında əməkdaşlıq üçün geniş imkanlar yaranıb və o, ölkənin iqtisadi nailiyyətlərinə sevinir, Azərbaycanı tolerant məkan hesab edir. Jerzy Buzek mayın 20-də Azərbaycana səfərinin yekunlarına dair mətbuat konfransında onu da deyib ki, ölkədə islahatlar aparmağa ehtiyac var:*

"Görüşdə sizin ölkə rəhbərliyini müxalifətlə əməkdaşlığa çağırdım. Bu əməkdaşlıq özünüifadə, sərbəst toplaşma azadlığı, müstəqil məhkəmə, müstəqil ədliyyə sahələrində olmalıdır".

**AZƏRBAYCANLA BELARUS ARASINA BƏRABƏRLİK *QOYMADI...***

*"Avropa Birliyi Şərq Tərəfdaşlığı Proqramı ölkələrinin Parlament Assambleyasının təsisi zamanı Belarusu dəvət etmədi. Halbuki insan haqlarının pozulmasına, antidemokratik göstəricilərə görə Azərbaycanla Belarus beynəlxalq təşkilatların hesabatlarında eyni göstəriciləri bölüşürlər. Bəzi müşahidəçilər hesab edirlər ki, AB Belarusla bir dildə, Azərbaycanla başqa dildə danışır. Buna münasibətiniz necədir?"* AzadlıqRadiosunun bu sualına Jerzy Buzek belə cavab verdi ki, o, iki ölkəni bir tutmaq istəməzdi, hətta hesab edir ki, bu ölkələri müqayisə etmək də mümkün deyil:

"Çünki Belarusda sonuncu prezident seçkisindən sonra o, Parlament Assambleyasında iştirak imkanlarını itirdi. Sonuncu parlament seçkisini də Avropa Birliyi azad seçki saymadı. Əgər desək ki, sizin ölkədə vəziyyət Belarusdan pisdi, düz olmaz, hətta bu iki ölkəni müqayisə etmək mümkün deyil. Buna baxmayaraq, Azərbaycanda özünüifadə, media, toplaşma azadlığı sahəsində təkmilləşməyə ehtiyac var. Biz bugünkü görüşlərdə rəhbərliyin bunu etməsinə qərarlı olduğunu eşitdik".

*"Həbsdə olan jurnalist Eynulla Fətullayevin, gənc fəallar Bəxtiyar Hacıyevin, Cabbar Savalanlıın məsələsini ölkə rəhbərliyi ilə görüşdə müzakirə etdinizmi?"* sualının cavabında Jerzy Buzek bildirdi ki, bu kimi həddindən artıq konkret məsələləri müzakirə ediblər. O dedi ki, Parlament Assambleyası nəzdində yaradılan iki ölkənin komitəsi arasında da müzakirə olunacaq və mütləq həllini tapacaq.

**"MƏN GƏLMƏMİŞƏM Kİ..."**

- Mən gəlməmişəm ki, sizə diktə edim, təcrübəmi bölüşməyə gəlmişəm. Gözəl bilirəm ki, xalq üçün, ölkə üçün, hökumət üçün uzun sürən demokratiyanın, vətəndaş cəmiyyətinin qurulması daha faydalıdır. O cümlədən dayanıqlı stabillik və inkişaf üçün demokratiya daha faydalıdır. İndi isə seçim sizindir!

# Z.Əsgərov: «Onsuz da beynəlxalq aləmdə kişilik qalmayıb»

**«Avropa Parlamentində qəbul edilən qətnamə «Nabucco» kəməri ilə bağlı Azərbaycana təzyiqlərin tərkib hissəsidir». Bunu Milli Məclisin mayın 17-də keçirilən iclasında parlamentin birinci vitse-spikeri Ziyafət Əsgərov deyib. O, hesab edir ki, Avropa təzyiqlərlə Azərbaycandan əlavə güzəştlər qoparmaq istəyir.**

**«AZƏRBAYCANA TƏZYİQ ETMƏK KİŞİLİK DEYİL»**

««Nabucco» Qərbin öz layihəsidir, buyursun həll etsin. Azərbaycan buna heç vaxt etiraz etməyib. Amma bundan istifadə edib Azərbaycandan əlavə güzəştlər qoparmaq və bu alınmayanda insan hüquqları, demokratiya, qanunun aliliyi adı altında Azərbaycana təzyiq etmək kişilik deyil. Onsuz da beynəlxalq aləmdə kişilik qalmayıb. Amma hər halda bizim də öz standartlarımız var».

Milli Məclisin iclasında cari məsələlər üçün ayrılan vaxt demək olar ki, Avropa Parlamentinin qətnaməsini tənqid etməyə sərf olunub. Deputat İqbal Ağazadənin fikirləri istisna olmaqla. Millət vəkilli Azay Quliyevin çıxışı ilə start götürən bu mövzunu deputatlar Əli Əhmədov, Fəzail Ağamalı, Gülər Əhmədova, vitse-spiker Bahar Muradova və digərləri inkişaf etdiriblər. Ümumilikdə onların hamısı Avropa Parlamentinin qətnaməsinin qeyri-obyektiv, qərəzli olduğunu söyləyiblər.

**«AVROPA PARLAMENTİ FAKTA MÜNASİBƏT BİLDİRİR»**

Deputat İqbal Ağazadə isə dedi ki, əslində bu cür qətnamələrin səbəbini ölkə daxilində baş verən hadisələrdə axtarmaq lazımdır. Onun fikrincə, Avropa Parlamenti fakta münasibət bildirir. İqbal Ağazadə fakt dedikdə Bakı Şəhər İcra Hakimiyyətinin «Sərbəst toplaşma azadlığı haqqında» qanunu pozduğunu, mitinq keçirmək istəyənlərin həbs edildiyini, gənclərin narkotiklə şərlənib həbsə atıldığını qeyd etdi.


Milli Məclis

***İlqar Rəsul***

**AzadliqRadiosu.az saytında daimi rubrika:**



# Gəncə-Şəmkir yolunun sirli təmiri


Təmirə dayanmış yolun 1-2 kilometri asfaltlanıb

**«İpək yolu»nun Gəncədən Şəmkirə gedən hissəsində təxminən 6 kilometrə qədər yol 6 aydır ki, təmirə dayanmışdı. Bu yol yenicə istifadəyə verilsə də, təmir işləri heç də başa çatmayıb. Sürücü Tural Məmmədli deyir ki, keçən bu müddət ərzində ehtiyat yolla gedib gəliblər: «Yol bərbad gündədir. Sürmək çətindir. 1 saatlıq yolu 2 saata gedirik. Xahiş edirik düzəltsinlər. Haradasa 6 aydır bu gündədir. 3 aydır gedib gəlirəm, görməmişəm təmir olsun. Təkərlər xarab olur, mühərrik isidir. Gedib gəlmək çox çətindir».**

T. Məmmədli kimi digər söhbətləşdiyim sürücülər də danışırlar ki, ehtiyat yol, sadəcə, torpaqdan təmizlənmiş sahədir. Ehtiyat yola 1 qat belə asfalt örtüyü çəkilməyib.

Şəmkir rayon 23 saylı Yol-İstismar İdarəsinin rəisi Tofiq Qurbanov deyir ki, Gəncədən Şəmkir istiqamətində 5.6 kilometr yolda təmir işləri gedir. Yolun bəzi hissəsi təmir edilib, bəzi hissəsi isə havalar isinəndə təmir ediləcək. O ki qaldı yolun təmirinin tam başa çatmamış istifadəyə verilməsinə, T. Quliyev bildirdi ki, bunu sürücülərin rahatlığı üçün ediblər.

**«SÜRÜCÜLƏRİN RAHATLIĞI ÜÇÜN»**

«Yol təmir olunub, qalıb axırıncı qat. Yağışlar yağdı, yəqin ki, başlayar.

- Layihə nə vaxt başa çatacaq?

-3-4 aya başa çatar. Gəncədən gələndə sol hissə təmir olunub, sağ hissə qalıb. Yaxın günlərdə başa çatacaq. Havalar yaxşıdır. İndi başlanılmalıdır».

Yolun təmir işlərini hansı şirkətin apardığını öyrənmək məqsədi ilə Nəqliyyat Nazirliyinin İctimaiyyətlə Əlaqələr Şöbəsinin rəisi Namiq Həsənovla əlaqə saxladıq. O bildirdi ki, podratçı şirkətin adını bilmir. Amma bu il Gəncə-Şəmkir yolu layihəsi icraçılardan təhvil alınmalıdır: «1 həftə bundan əvvəl mən özüm gəlib getmişəm. Gördüm ki, iş gedir».

N. Həsənovdan fərqli olaraq əksər sürücülər son aylarda yolda heç bir təmir işlərinin aparılmadığını deyirlər. Əslində, sürücülərdən müsahibə götürərkən biz də yolda fəhlələri görmədik. Yola nəzarət edən 23 saylı Yol-İstismar İdarəsinin rəisi T. Quliyev də təsdiqlədi ki, havaların isinməsini gözləyən fəhlələr 3 aydır ki, işləmirlər.

Layihənin icraçıları Gəncə-Şəmkir yolunun əsaslı təmirinə nə qədər vəsait ayrılması barədə məlumat vermirlər. İqtisadçı ekspert Azər Mehtiyev isə deyir ki, hazırda dövlət büdcəsindən yolların təmirinə böyük pullar ayrılır.

**AZƏRBAYCAN SAYAĞI...**

«Yol təmir üçün plana salınıb, onu təmirə dayandırıblar. Zaman keçdikcə, həmin vəsaitin xərclənməsi baş vermir. Vəsait mənimsənilir. Təmir baş tutmayandan sonra bunu hər hansı formada rəsmiləşdirirlər, təmir olunmuş kimi. Ən azından cari təmir olunmuş kimi yolu əhalinin istifadəsinə buraxırlar. Bu hallar Azərbaycanda geniş yayılıb».

***Gülnur Raqifqızı***

# Astara keçid məntəqəsində dava xəbəri var

**SƏRHƏD KEÇİD MƏNTƏQƏSİNDƏ NƏ BAŞ VERİB?**

Astara keçid məntəqəsində mülki adamların gömrük işçiləri və sərhədçilərlə tez-tez gərginlikləri yaşanır. Aldığımız məlumata görə, mayın 12-də Astara rayonunun Ərçivan kənd sakini Ramiz Nəsirov İrana keçərkən sərhədçilərlə onun arasında mübahisə düşüb. Bir neçə sərhədçinin döyməsi nəticəsində onun xəsarət aldığı bildirilir. R.Nəsirova Astara Rayon Mərkəzi Xəstəxanasında ilkin yardım göstərilib. Mayın 16-da Astara gömrükxanasından İrana keçmək istəyən mülki adamlarla sərhədçilər arasında yenidən qarşıdurma baş verib. Bu dəfə isə mülki sakinlərin sərhədçiyə təzyiq göstərdiyi deyilir. Məlumatlarda Samiq Əliyev adlı sərhədçinin xəsarət aldığı da bildirilir.

Astara rayon tibbi ekspertiza və pataloji anatomya şöbəsində AzadlıqRadiosuna bildiriblər ki, hər iki şəxs aldıqları xəsarətlə bağlı onlara müraciət edib. Ramiz Nəsirovun atası Musa Nəsirov bu barədə danışmaq istəmədi. Sərhəd dəstəsindən məlumat almaq cəhdlərimiz isə nəticəsiz qaldı.

**HƏKİMLƏR BİLİR, AMMA POLİS VƏ PROKURORLUQ YOX?**

Rayon Prokurorluğundan AzadlıqRadiosuna bildiriblər ki, hər iki hadisə ilə bağlı onlarda araşdırma getmir. Rayon Polis Şöbəsindən isə bildirdilər ki, bu barədə onlara müraciət edən olmayıb.

Sabiq gömrük xidməti kapitanı, hüquqşünas Elman Hüseynovun sözlərinə görə, Astara keçid məntəqəsində bu tipli qarşıdurmalar vaxtaşırı baş verir. Amma məmurlar öz aralarında bu hadisələri ört-basdır edirlər:

- "Əslində Gömrük başdan-başa dəmir barmaqlıqlarla əhatəyə alınıb. Göstəriş var ki, İrana gündə 300 nəfərdən artıq vətəndaş buraxılmasın. Bu yaxınlarda İrana getmişdim. Səhər saat 6-dan dəmir barmaqlıqlar arasında növbəyə durdum. Həm sərədçilərimiz, həm də gömrük işçilərimiz özlərini apara bilmirlər. Yalnız saat 11-də o taya keçə bildim. Bu, insan hüquqlarının kobud şəkildə pozulmasıdır. Bütün bu qarşıdurmaların kökündə monopoliya və pul əldə etmək durur".



Astarada Azərbaycandan İrana sərhəd keçid məntəqəsinin qarşısı

# «Guardian»: «Eurovision» Azərbaycanı dəyişdirə bilər


Bakıda keçirilən etiraz aksiya zamanı

**Azərbaycanın «Eurovision-2011» musiqi yarışmasındakı qələbəsindən sonra Böyük Britaniyanın «Guardian» qəzeti Azərbaycanla bağlı məqalə dərc edib. Aslan Amaninin müəllifi olduğu məqalədə deyilir:**

- Bu ilin qalibləri Eldar və Nigar Avropanın insan hüquqları və siyasi azadlığın pisləşdiyi ölkəsinin təmsilçisidir. Bu faktdır ki, mayın 12-də Avropa Parlamenti Azərbaycandakı insan hüquqları və siyasi vəziyyəti tənqid edən qətnamə qəbul edib.

**HAKİMİYYƏT RƏQİBLƏRİNİ SIRADAN ÇIXARIB**

Azərbaycanın neft bumu Əliyev sülaləsinə hakimiyyətini saxlamağa imkan verib. Altı il əvvəl Azərbaycan neftini Avropa bazarlarına daşıyan Bakı- Ceyhan neft kəmərinin işə salınmasından bəri bu kiçik keçmiş Sovet ölkəsi gündə bir milyon bareldən çox neft istehsalçısına çevrilib. Neft məhsuldarlığının qəfil dörd dəfə artımı hakimiyyətə daxili və xarici dəstək qazanmağa və repressiya aparmasına yardım edib. Hakimiyyət neft bumunun fonunda 2010-cu ildə zəif rəqiblərinin sonuncularını sıradan çıxardı, parlamentə 125 yerə bir real müxalifət namizədini də buraxmadı.

**XƏZƏR SAHİLLƏRİNDƏ «ƏRƏB BAHARI» NARAHATLIĞI**

Ancaq «Ərəb baharı» Xəzərin qərb sahillərində də bir az narahatlıq yaradıb. Onlarla müxalif fəalı məhkəmə qarşısında dayanıb. Ötən həftə bir gənc fəal narkotik ittihamı ilə həbsə atılıb. Həbsindən qabaq gənc «Facebook»-da öz dostlarını misirli gənclərdən öyrənməyə çağırıb. Digər gənc fəal, Harvard universitetinin məzunu və millət vəkilliyinə keçmiş namizəd hərbi xidmətdən boyun qaçırma ittihamı ilə məhkəmə qarşısına çıxıb.

**«EUROVİSİON» AZƏRBAYCANDA REPRESSİYANI DAYANDIRA BİLƏR**

Buna baxmayaraq, burda imkan var ki, «Eurovision» neft pullarından və İlham Əliyevin «Ərəb baharı»nın narahatlığı üzündən doğan repressiyasını dayandırsın, həm də az da olsa, siyasi açıqlığa şərait yaratsın. Bu, beş müxtəlif üsulda özünü göstərə bilər.

**• «EUROVİSİON» AZƏRBAYCANI İSLAHATA MƏCBUR EDƏ BİLƏR**

**• AZƏRBAYCANLILARIN KOLLEKTİV ÖZÜNÜİFADƏETMƏ BAĞI QIRILMAYIB**

**Yazının davamını AzadliqRadiosu.az saytında oxuyun.**

# «Eurovision»a kim nə qədər xərcləyib?




**«Eurovision» təkcə musiqi ifaçılarının müsabiqəsi yox, həm də bütün dünyaya yayımlanan böyük teleşoudur. Bu səbəbdən müsabiqəyə hazırlıq və onun keçirilməsi heç də az vəsait tələb etmir.**

İlkin mərhələdə müsabiqənin büdcəsi əsasən milli yayım qurumlarının hesabına formalaşırdı. Amma müsabiqənin təşkili üçün xərclər hər il artır. Hal-hazırda müsabiqənin xərclərini ev sahibliyi edən ölkə ilə təşkilatçı – Avropa Yayım Birliyi (EBU) ödəyir.

Ev sahibinə müsabiqənin təxmini büdcəsi təklif olunur. Tövsiyə olunan büdcənin yarısını EBU verir. Qalan məbləği ev sahibinin özü ayırmalıdır. O, payına düşən məbləğdən az xərcləyə bilməz, amma çox xərcləməyə icazə verilir. EBU-nun ayırdığı vəsait minimaldır, o, müsabiqə üçün avadanlıqların kirayəsinə xərclənir.



# «Eurovision–2012»nin təşkilinə Mehriban Əliyeva rəhbərlik edəcək

*Mayın 19-da prezident İlham Əliyev «Eurovision–2012» mahnı müsabiqəsinin Bakı şəhərində keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncama görə, «Eurovision–2012» mahnı müsabiqəsinin keçirilməsi ilə bağlı yaradılacaq təşkilat komitəsinə prezidentin xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sədrlik edəcək. Təşkilat Komitəsinə 6 nazir, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, İctimai TV-nin baş direktoru, bir neçə dövlət qurumlarının prezidentləri və digər rəsmi şəxslər üzv seçilib.*

Türkiyənin prezidenti Abdullah Gül və baş nazir Rəcəb Tayyib Ərdoğan Azərbaycanın «Eurovision- 2011» mahnı müsabiqəsindəki qələbəsi ilə bağlı prezident İlham Əliyevi təbrik ediblər.


Roland Kobia

# Səfir Roland Kobia: ««Eurovision-2012» qızıl imkandır»

««Eurovision» təkcə mahnı müsabiqəsi deyil, burada siyasi məqamlar da var». Bu fikirləri Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Roland Kobia Bakıda keçirilən ««Şərq Tərəfdaşlığı» proqramı iki il sonra – nailiyyətlər və çağırışlar» mövzusunda konfransda çıxışı zamanı deyib. Səfir Azərbaycanın «Eurovision-2012» müsabiqəsinə ev sahibliyi etməsini qızıl imkan adlandırıb: «Bu, qızıl imkandır, çünki bütün diqqət Azərbaycana yönələcək. Ümidvarıq ki, Azərbaycan bu imkandan ölkənin daha da modernləşdirilməsi üçün istifadə edəcək».

# Обама: "Стратегия репрессий не пройдет"

**Барак Обама поддержал политические изменения на Среднем Востоке. Президент США заявил в четверг, что революции на пространстве Ближнего Востока и Северной Африки свидетельствуют о жажде свободы, которая назрела годами и привела к свержению тирании.**

«Похоже, еще многое впереди», - сказал он."Интересы США на Ближнем Востоке не идут вразрез с интересами государств этого региона", - добавил Обама.

Комментируя продолжающиеся уже несколько месяцев массовые антиправительственные выступления в ряде стран с требованием демократических реформ, Обама сказал, что "Соединенные Штаты против использования силы в отношении демонстрантов и поддерживают стремление людей отстоять свои гражданские права".

Обама подверг жесткой критике Сирию, где власти силой подавляют протесты оппозиции и напомнил о введении санкций и против президента Башара Асада.


Barak Obama

Президент США заявил, что будущее палестинское государство могло бы занять территории, захваченные Израилем в ходе Шестидневной войны 1967 года – с некоторыми видоизменениями, которые стороны могут согласовать в ходе переговоров.

# Гарри Каспаров: "Я не забываю, что жил в Баку"

***13-й чемпион мира по шахматам, а ныне – непримиримый оппозиционер в России, Гарри Каспаров дал интервью агентству Turan. Приводим его ответы, относящиеся к Карабахскому конфликту:***

**- В Азербайджане бытует мнение, что Гарри Каспаров не враг, но и не друг Азербайджану. Что Вы можете сказать по этому поводу?**

- Все не так однозначно. Просто надо помнить, что я - человек, который родился и вырос в Баку, пережил январь 1990 года, и у меня есть масса родственников, который пережили то же самое, и сейчас живут в разных других местах. Все это не могло не наложить свой отпечаток, но я не забываю, что я прожил значительную часть своей жизни в Баку.

**- Что Вы скажете относительно Карабахского конфликта?**

- Я против насилия сейчас, и был против всегда. Я был также против этого движения (карабахского – ред.) в самом его начале. И я хочу, чтобы меня правильно понимали. Я сторонник интеграции, решения вопросов мирным путем и на основе учета взаимных интересов. Поэтому, я против военного решения этой проблемы, и если война начнется, я будут против этого.

Пролилось достаточно крови. Но я не хочу сказать, что у меня есть решение или рецепт решения проблемы. Просто, при таких серьезных конфликтах нахождение решения не бывает быстрым и легким. Наверное, должно пройти определенное время и вырасти новое поколение. Люди с обеих сторон должны согласиться, что события 1988-1994 гг. остались в истории.

**- Вы полагаете, что Азербайджан должен смириться и дальше жить с оккупированными территориями или признать Карабах?**


Гарри Каспаров

- Нет, я думаю, что в нынешней ситуации нахождение взаимоприемлемого решения затруднено и должна измениться ситуация, что-то должно произойти в мире и регионе, чтобы решение стало возможным. Я полагаю, что конфликт получился такой затяжной потому, что центральная власть всегда использовала эти события для своих целей. Не забудем, что империя разваливалась, и центр использовал все это, а также конфликты в Абхазии и Осетии, Приднестровье, чтобы не допустить развала СССР.

**- Вот, прошло 20 лет, и позиции сторон не изменились. Почему Вы думаете, что в будущем армяне добровольно откажутся от Карабаха, или Азербайджан согласиться его отдать?**

- Я хочу вернуться назад и сказать, что мир меняется и геополитические завязки, которые были невозможны вчера, сегодня становятся явью. Надо работать в этом направлении и искать выход именно там. Кстати, этот конфликт сейчас тоже используется властями Азербайджана и Армении для укрепления своих позиций и обогащения. Поэтому, демократический Азербайджан будет ближе к решению этой проблемы, нежели сейчас.

Я думаю, что последним завещанием Гейдара Алиева Ильхаму было такое: грози войной, но не воюй. И он воевать не будет.

**- Почему Вы так думаете?**

- Вот давайте представим, что он начал военные действия и выиграл войну. Что будет дальше? Возникнет новая ситуация, и нужно будет всем объяснять, почему надо воровать такое количество денег?

Нынешний статус-кво устраивает и Баку, и Ереван, где угрозу войны используют в одинаковых целях. И в Ереване у власти те, кто оказался наверху, благодаря войне, и они тоже хотят эту власть удержать. Поэтому, урегулирование станет реальным, когда с политической сцены уйдут нынешние элиты и придут люди с другими воззрениями демократическими.

# M.Brayza: "Cəmiyyət antikorrupsiya kampaniyasına dəstək verməlidir"



ABŞ-ın Azərbaycandakı səfiri Metyu Brayza

***ABŞ-ın Azərbaycandakı səfiri Metyu Brayza "Amerikanın səsi" radiosuna müsahibə verib. Müsahibəni qısa ixtisarla təqdim edirik:***

Sual: **- Dövlət Departamentinin hesabatlarında Azərbaycanda insan hüquqları, mətbuat, toplaşmaq azadlıqlarının pozulmasından və korrupsiya hallarından danışılır. Bu sahədəki durumla bağlı Azərbaycan hökuməti ilə müzakirələr aparılırmı, vəziyyətin yaxşılaşdırılması istiqamətində Amerika hansı köməklikləri təklif edə bilər?**

Cavab: - Bu məsələləri Azərbaycanın yüksək və orta səviyyəli rəsmiləri, eyni zamanda parlamentdə müzakirə etmişik. Mən, əlbəttə, vaxtımın çox hissəsini tərəfdaşlıq ruhunda Azərbaycan hökumətindən olan tərəfdaşlarımla demokratiya və insan hüquqları məsələsinin müzakirəsinə həsr edirəm. Əlbəttə, burada biz saxlanılmış jurnalistlər və nümayişçiləri də əhatə edirik. Onu da qeyd edim ki, ATƏT-in keçirdiyi təlimlərin nəticəsində polis bu prosesdə hətta onlardan gözləniləndən daha yüksək səviyyədə fəaliyyət sərgiləyib. Biz fəaliyyətlərimizi tərəfdaşlıq ruhunda qurmaqla istəyirik ki, Azərbaycan öz fəaliyyəti və inkişaf istiqamətində siyasi avtoritarizmi ilə islam ekstremizmi arasında alternativ bir yol istiqamətində getsin və biz bütün fəaliyyətlərimizi bu yöndə, bu istiqamətdə qurmuşuq. Bu islahatlar qısamüddətli baxışda bəzi insanlar üçün riskli görünsə də, uzunmüddətli perspektivdə sabitliyin bərqərar olunmasına kömək göstərir.

Azərbaycan hökumətinin antikorrupsiya kampaniyasını müsbət qarşılayırıq. Azərbaycan rəsmilərinin bu kampaniyanın ciddi xarakter daşıması, dərinləşdirilməsi və genişləndirilməsi barədə fikirlərini çox müsbət qarşılayırıq. Biz, bu təşəbbüsə və kampaniyaya dəstək göstərmək üçün əlimizdən gələni edəcəyik.

Sual: **- Azərbaycanda son aksiyalar zamanı baş verənlərə münasibətiniz? Aksiyalarla paralel olaraq jurnalistlərə qarşı fiziki təzyiqlər də qeydə alınır.**

Cavab: - 2 apreldə, birinci nümayişlərdən sonra Mətbuat Şurası bir araya gəldi, jurnalistlərlə davranış istiqamətində müvafiq metodlarla bağlı söhbətlər aparıldı və bundan sonra jurnalistlərlə davranışda müsbət dəyişikliklərin şahidi olmuşuq. Amma əsas məqsədimiz Azərbaycanda jurnalistlərin mühafizə olunma və qorunma barəsində fikirləşməmələrinə nail olmaqdır. Düzdür, nümayişlər uzun miqyasda və geniş xarakter daşımayıb. Biz həmişə Azərbaycanda sərbəst toplaşmaq azadlığını dəstəkləmişik və Azərbaycan hökuməti nümayəndələri ilə söhbətlərimizdə bu fikirləri daim diqqət mərkəzində saxlamışıq.

Sual: **- Prezident Administrasiyasının beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov beynəlxalq təşkilatların, o cümlədən Amerika Birləşmiş Ştatlarının Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesində ədalətli mövqe tutmadığını deyir. Sizin münasibətiniz? Münaqişənin indiyədək nizamlanmamasına əsas səbəb nədir?**

Cavab: - Cənab Məmmədov ABŞ-ın və şəxsən mənim çox yaxşı bir dostumdur. Eyni zamanda o, güclü bir vətənpərvərdir və belə də olmalıdır. Mən cənab Məmmədovla bir sıra məsələlərdə razılaşıram. Ancaq bu məsələdə fikrim bir qədər fərqlidir. Öz təcrübəmdən bilirəm ki, ABŞ və Minsk Qrupundan olan tərəfdaşlarımız Dağlıq Qarabağ münaqişəsinin ədalətli və sülh yolu ilə həlli istiqamətində necə səylə çalışır.

Çox vaxt belə tənqidlər eşidirəm ki, Minsk Qrupu çərçivəsində indiyədək heç nə əldə olunmayıb. Əslində isə çox böyük nailiyyət əldə olunub. Münaqişənin ədalətli və sülh yolu ilə həlli üçün ortada ədalətli təkliflər var. Sadəcə, bu təkliflərin bir az da işlənməsi tələb olunur.

Əlbəttə, tərəflər razılıq verməzsə, hər hansı razılaşmadan söhbət gedə bilməz. Yəni burada tarazlaşdırılmış balanslı yanaşmadan söhbət gedə bilər. Bu razılaşmanın xüsusiyyəti belədir ki, hər şey barədə razılığa gəlinməyibsə, heç nə barədə razılığa gəlinməyib. Hər şey barədə razılığa gəlmək üçün isə vaxt tələb olunur. Prezidentlər baza prinsipləri barədə razılığa gəlinib yekunlaşdırılması istiqamətində xeyli irəliləyiş əldə etmişdi, sadəcə, bu istiqamətdə hələ də gediləsi yol var.

# ABŞ-la İsrail arasında fikir ayrılığı var

Mayın 20-də Vaşinqtonda ABŞ prezidenti Barak Obama ilə İsrailin baş naziri Benjamin Netanyahu arasında görüş olub. Barak Obama görüşdən sonra keçirilmiş mətbuat konfransında Yaxın Şərq sülh prosesində ABŞ-la İsrail arasında fikir ayrılığı olduğunu deyib. Netanyahu isə deyib ki, İsrail 1967-ci il sərhədlərinə qayıda bilməz. ABŞ prezidenti Barak Obama cümə axşamı Yaxın Şərq və Şimali Afrikayla bağlı çıxışında bildirib ki, Yaxın Şərq sülh prosesi daimi sərhədləri olan 2 dövlətlə nəticələnməli və bu sərhədlər 1976-cı ildəki sərhədlərə əsaslanmalıdır.



# «Qoşulmamaq hərəkatı»na qoşulmaq Azərbaycana nə verəcək?

**Azərbaycan «Qoşulmamaq hərəkatına» qoşulmağa qərar verib. Mayın 25-dən 27-nə kimi hərəkatın İndoneziyada keçiriləcək 16-cı konfransında Azərbaycan bu quruma tamhüquqlu üzv olacaq. İndiyə qədər Azərbaycan bu hərəkatda müşahidəçi qismində iştirak edib. «Qoşulmamaq hərəkatı» dünyanın 118 ölkəsini ilk növbədə hərbi bloklara qoşulmamaq prinsipi üzrə birləşdirən beynəlxalq təşkilatdır. Bu hərəkat 1961-ci ilin sentyabrında 25 ölkənin iştirakı ilə Belqradda yaradılıb.**

*Azərbaycanın bu qərarı ilə bağlı bir neçə ekspertin fikirlərini təqdim edirik:*



Politoloq Hikmət Hacızadə

Politoloq Hikmət Hacızadə:

- Azərbaycanın belə bir addım atması daha çox Rusiya və İrandan olan təzyiqlərin qarşısını almağa hesablanıb. Ola bilsin İranla hansısa münaqişə gözlənilir və ya Rusiya NATO-ya görə Azərbaycanı qısqanır. Bu hər iki ölkəyə bir mesajdır ki, baxın, biz neytralıq, ərazimizdən sizə təhlükə filan olmayacaq. Belə bir hərəkata qoşulma Qarabağ münaqişəsinin həllində Azərbaycana hər hansı üstünlük vermir.

Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının sədri Sülhəddin Əkbər:

- NATO-ya inteqrasiya yolunu seçən ölkənin birdən-birə belə bir addım atması qeyri-ciddi görünür. Bakı bir tərəfdən



Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının sədri Sülhəddin Əkbər

2007-ci ildə qəbul etdiyi Milli Təhlükəsizlik Konsepsiyasında göstərilir ki, Azərbaycanın strateji hədəfi Avroatlantik məkana inteqrasiyadır. Avroatlantik məkanın əsas institutu da NATO-dur. 2010-cu ildə qəbul edilən Hərbi Doktrinada da NATO-Azərbaycan münasibətlərinə ötəri yer ayrılıb. Hakim siyasi elita Rusiya ilə gələcəkdə də əməkdaşlığı gücləndirmək niyyətində olduğundan bununla özünün manevr imkanlarını artırmış olur. Amma mən hesab etmirəm ki, bu addımın qarşılığında Rusiya Qarabağla bağlı Azərbaycanın atacağı hər hansı addıma göz yumsun. Rusiya bu konfliktləri zaman qazanmaq üçün yaradıb. Öz gücünü bərpa edəndən sonra düşünür ki, bu dövlətlər onun təsir dairəsindən çıxa bilməyəcək.

Xarici İşlər Nazirliyinin sözçüsü Elxan Poluxov isə deyir ki, Azərbaycanın «Qoşulmamaq hərəkatı»na qoşulması o demək deyil ki, ölkə indiyə qədər apardığı siyasətdə hansısa dəyişiklik edəcək:


Xarici İşlər Nazirliyinin sözçüsü Elxan Poluxov

- Yox, biz Avroatlantik məkana inteqrasiya prosesini başlamışıq və bu prosesi davam etdirəcəyik. Ancaq bu da o demək deyil ki, biz NATO və ya hansısa təşkilatın üzvü olmaq istəyirik. İnteqrasiya heç də üzv olmaq demək deyil. Həm NATO, həm Avropa Birliyi ilə başlanan əməkdaşlıq davam edəcək.

Elxan Poluxov Azərbaycanın Rusiya və İranı qıcıqlandırmamaq baxımından adıçəkilən hərəkata qoşulması barədə səslənən fikirlərlə də razılaşmır. Deyir ki, Azərbaycan həm xarici, həm də daxili siyasətini müəyyənləşdirəndə öz milli maraqlarını əsas götürür. XİN rəsmisinin deməsinə görə, Azərbaycan bu hərəkata necə qoşulursa, elə də onu tərk edə bilər.

**HƏRBİ EKSPERTLƏR NƏ DEYİR?**



Hərbi ekspert Üzeyir Cəfərov

Hərbi ekspertlər də indiki məqamda ölkənin belə hərəkata qoşulmasına müsbət yanaşmırlar. Həmin ekspertlərdən biri olan Üzeyir Cəfərovun deməsinə görə, Azərbaycan hər hansı bloka qoşulmamaq siyasəti ilə əslində NATO bu vaxta qədər qurulan əməkdaşlığa xələl gətirmiş olur.

Ekspert hesab edir ki, sözügedən hərəkatın prinsiplərinə əsasən, Azərbaycan ən yaxın müttəfiqi olan Türkiyə ilə münasibətlərinə yenidən baxmalıdır. Üzeyir Cəfərovun sözlərinə görə, bu məsələ ilə bağlı xeyli suallar var və yaxşı olar ki, rəsmi qurumlar birdən-birə belə bir addımın atılmasının zəruriliyi ilə bağlı ictimaiyyətə məlumat versinlər.

***Maarif Çingizoğlu***

# Əl-Qaidə yeni liderini müəyyən edib

*Al-Jazeera və CNN telekanallarının məlumatına görə, əl-Qaidə terror təşkilatı əslən Misirdən olan və xüsusi təyinatlı qüvvələrin keçmiş zabiti Saif al-Adeli özünün müvəqqəti lideri elan edib. Əl-Qaidənin əvvəlki lideri Üsamə bin Laden bu il mayın 2-də Pakistanda ABŞ hərbçiləri tərəfindən öldülrülb. Saif al-Adelinin 40-50 yaşlarında biri olduğu güman edilir. ABŞ onu 1998-ci ildə Nayrobi və Dar əs Salaamdakı səfirliklərinə bombalı hücuma görə günahkar bilir. Onun Əfqanıstan və Sudanda Əl-Qaidə üçün təlim mərkəzi yaratdığı da güman edilir.*

ABŞ-ın Federal Təhülkəsizlik Bürosu Muhamad Ibrahim Makkawi və Ibrahim Al-Madani adları ilə də tanınan bu adamın başına 5 milyon dollar mükafat vəd edib. Təhlilçilər onun müvəqqəti lider elan edilməsinə baxmayaraq, tezliklə daimi lider olacağını deyirlər. Bundan əvvəl əl-Qaidənin növbəti lideri kimi bin Ladenə yaxın olan 59 yaşlı Ayman al-Zawahirinin adı hallanırdı. O da əslən misirlidir.

# Gəncədə toyu yarımçıq qalmış 13 yaşlı gəlin


13 yaşlı gəlin...

**Ötən həftə Gəncədə 8-ci sinif şagirdi - 13 yaşlı Aytən Əliyevanın (Ad şərtidir - red.) toy mərasimi yarımçıq qalıb. Aytən bəzəndiyi gözəllik salonundan birbaşa polis idarəsinə aparılıb. Bu yaşda ərə getmək qanunla qadağan edildiyi üçün. O özündən 20 yaş böyük Kamil adlı Beyləqan rayon sakininə ərə verilirmiş.**

### SAÇLARININ BƏZƏYİ HƏLƏ DƏ POZULMAYIB

Biz ora gedəndə Aytən Əliyevanın evlərində xeyli adam var idi. Bir neçə gün əvvəl toy hazırlıqlarına yığışan qohumlar indi yarımçıq qalmış toyun müzakirəsini edirdilər. Qapılarında elə A.Əliyevanın özü məni qarşıladı. Hələ də saçının bəzəyi pozulmamış bu qız jurnalist olduğumu biləndə şəklini çəkməməyimi istəyir. Səsini də yazmağıma razı olmur. Ancaq deyir ki, polisə şikayət edənlər onun paxıllığını çəkən qohumları olub. Aytən Əliyeva deyir ki, oğlan evinin adamları onun dayısı qızına elçi düşüblərmiş. Ancaq baxmağa gələndə, oğlan onu bəyənib.



### GƏLİN BƏYİ GÖRMƏYİBMİŞ

Qızın deməsinə görə, bəyin üzünü də görməyib, daha çox telefonla danışıblar. Artıq bir həftəymiş ki, nişanlanıblarmış. A.Əliyeva düşünür ki, onun toyuna mane olublar. Anasına deyiblərmiş ki, oğlan varlıdır, biznesmendir. Elə bu səbəbdən də qohumları paxıllıq edib. A.Əliyeva deyir ki, anası şəkildə oğlanın evinə baxıb, oğlanın böyük evi var. Üstəlik, o, 13 yaşında ərə getməyin qadağan olunduğunu bilir. Ancaq deyir ki, anası məsləhət görüb, o da razılaşıb. Deyir ki, düzü oxumaq da xoşuna gəlir, musiqi kollecini bitirmək arzusudur... Ancaq gəlin olmaq da ona maraqlı görünür.

### «MƏKTƏBƏ GETMƏYƏ UTANACAM»

*A.Əliyeva deyir ki, insan alveri söhbətinə inanmır. Onun fikrincə, anası ona elə bir həyatı rəva görməz. Həvəslə əllərini göstərir və deyir ki, bax, 2 gün əvvəl xınayaxdı gecəm də oldu, rəfiqələrim də gəlmişdi. Əlləri xınalı, hələ də başı bəzəkli, toyu yarımçıq qalmış bu qız 10-15 dəqiqəlik söhbətimizə «məktəbə getməyə utanacam» cümləsi ilə son qoyur. Anası deyir ki, qızını ondan çox heç kim istəyə bilməz. Onun fikrincə, xainliklə onları rüsvay edib, qızlarını xoşbəxt olmağa qoymayıblar:* «Mənim özüm də 13 yaşımda ərə getmişəm. Yoldaşım ölənədək rahat yaşamışıq. İndi o biri qızım nişanlı, özüm də xəstə adamam. Ona görə dedim ki, ərə verim, cehiz filan da istəmədilər.

Toya müdaxilə edən Gəncə Şəhər Polis İdarəsinin rəis müavini İlqar Balakişiyev isə deyir ki, belə nikah qanunla qadağandır və qohumların şikayəti əsasında mərasimin qarşısı dərhal alınıb.

### POLİS QIZIN SATILMASI EHTİMALINI İSTİSNA ETMİR

İ.Balakişiyev onu da əlavə edir ki, ananın qızını satmaq istəməsi ehtimalı da istisna deyil. Onun deməsinə görə, cəmi 40 nəfərlik tələsik toy edən ailələr toyun sabahı günü evlənənləri bal ayı adı ilə Türkiyəyə yollamaq niyyətində imişlər. Artıq aviabiletlər də alınıbmış. Üstəlik, qızın toydan öncə həkim müayinəsindən keçirilməsi, həmçinin bakirəliyinə dair arayışın da alınması qohumları da, polisləri də şübhəyə salan amillər olub.

Polisə ifadəsində qızın anası deyib ki, 13 yaşında ərə gedib, lakin uzun müddət sonsuzluqdan əziyyət çəkdiyinə görə bir dəfə ailəsi dağılıb. İkinci dəfə ailə quraraq 40 yaşından sonra dünyaya iki uşaq gətirib. 54 yaşlı qadının səhhətinin vaxtından tez ağırlaşmasını da elə onun erkən ailə qurması ilə izah edənlər var. Elə həkim, mama-ginekoloq Səkinə Cənnətova deyir ki, əksər hallarda erkən ərə getmiş qızlar sonsuzluqla üzləşirlər. Üstəlik, hamiləlik dövrlərini yüksək təzyiq və digər patologiyalarla keçirirlər.

### HÜQUQUN DİLİ İLƏ

*Azərbaycan qanunvericiliyinə əsasən, oğlanlar 18, qızlar isə yalnız 17 yaşlarından etibarən ailə qurmaq hüquqi əldə edirlər. Hüquqşünas Namiq Quliyev isə erkən nikahların daha böyük fəlakətlərə yol açdığını deyir. Ailədə münaqişə olarsa və cütlüklər ayrılarsa, qadının gəlin köçdüyü evdə nə mülk, nə də digər payı olur:* «Ancaq uşaq varsa, qadın atadan uşaq üçün aliment ala bilər. Bir də yaşadıqları müddətdə aldıqları hansısa əşya bölünə bilər».

*Gəncə Regional Qadın Mərkəzinin sədri Məleykə Əlizadə deyir ki, təkcə Gəncəbasar deyil, Azərbaycanın müxtəlif regionlarında belə hallara rast gəlmək olar:* «Valideynlər bunu əsasən sosial problemlərlə əsaslandırırlar. Amma bilməlidirlər ki, 13 yaşında qız nə fizioloji, nə də psixoloji ailə qurmağa hazırdır. Onun ailədə ciddi problemləri olur. 13 yaşlı qız hansı uşaq tərbiyə edə bilər. Dünyaya gətirdiyi uşaq onun üçün ancaq gəlincik rolunu oynaya bilər».

***Gülnur Raqifqızı***

# Harada dincəlmək olar?



**«İşdən sonra» proqramında yazıçı Əli Əkbər, telejurnalist Aynur Talıbova və BMT-nin Turizmin İnkişafı Layihəsinin milli koordinatoru Faiq Qürbətov bu suala cavab veriblər.**

Əli Əkbər:

- «Azərbaycanda dincəlməyin deyə müraciət ilk deyil, keçən ildə də imzalanmışdı. Və o imzalanandan sonra Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev mətbuat konfransında bildirmişdi ki, 50 faiz endirim etmələri üçün bütün otellərə tapşırıq verilib. Bundan sonra Azərbaycan xalqının Gürcüstana, xaricə getmələrinə ehtiyac qalmadığını bildirdi. Əlbəttə, bizim də ən böyük arzumuz odur ki, öz ölkəmizdə dincələk. Azərbaycanda istirahət etmək üçün kifayət qədər məkan var. Amma biz sevinsək də, sevincimiz çox uzun sürmədi. Biz qısa müddət sonra qiymətlərin nəinki 50 faiz endirildiyinin, hətta daha da yüksəldiyinin şahidi olduq. Vəziyyət yenə də bərbaddır. Bir azərbaycanlı ailəsi bu gün Azərbaycanın heç bir istirahət zonasında münasib qiymətə dincələ bilməz».

Aynur Talıbova:

- «Tətillər başlayan kimi ölkədə heç kim qalmır. Və böyük əksəriyyət Gürcüstana üz tutur. Bunun da bir neçə səbəbi var. Qış və yay turizmi nöqteyi-nəzərindən infrastrukturun olması və ən önəmlisi qiymət faktorudur».

Faiq Qürbətov:

- «Qiymətlər istehlakçılarının əlindədir. Çünki bazarın belə bir qanunu var ki, tələb təklif məsələsi. Ümumiyyətlə, niyə azərbaycanlılar xaricə getməsinlər? Niyə məhz azərbaycanlılar öz ölkələrində istirahət etməlidirlər? Qiymətlərin tənzimlənməsi məsələsi istehlakçılarla istehsalçılar arasında baş verməlidir. Mən inanmıram ki, sabah otellər qiymət bahalığından boş qaldığı halda onlar qiymətləri endirməsinlər. Bayramlarda o məşhur otellərdə yer tapmaq mümkün deyil. Onlar da buna rəğmən öz qiymətlərini endirmirlər».

**Verilişi AzadliqRadiosu.az saytında tam dinləmək olar.**

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# Qız Qalasının rəngi ağarır...

*Qaralmış divarlar, küləyin-yağışın ovub-aşındırdığı daşlar...*

Təsəvvür edin ki, bir neçə il sonra Qiz Qalasının bu mənzərəsi yoxa çıxır... Daşlar ağarır.. Yerində başqa bir qala boylanır... Təsəvvür etdinizmi?..

Yəqin eşitmisiz, Qız Qalasında bərpa və muzey konservasiya işlərinə başlanıb. Bu məqsədlə dövlət büdcəsindən 2,5 milyon manat vəsait də ayrılıb. Bərpa və konservasiya işlərini Avstriyanın bərpaçı mütəxəssisi Erix Pummerin başçılığı altında "Atelier Erich Pummer" şirkəti aparır. Bərpa zamanı Almaniyanın "Remmers" şirkətinin xüsusi materiallarından istifadə olunacağı bildirilir.

Artıq qalanın Karvansaraya baxan hissəsində ustalar bir neçə metri bərpa və konservasiya ediblər. Yəni qala divarlarında daşlar arasındakı yaranmış boşluğu xüsusi məhlulla doldurmağa



başlayıblar. Amma daşlar arasında məsafə doldurulduqca divar ağarmağa başlayır ki, bu da yaşı mindən artıq olan Qız Qalasının görkəmini bir qədər müasirləşdirir.

**Reportajın davamını AzadliqRadiosu.az saytında oxuyun.**

***Şahnaz Bəylərqızı***



Serj Sarkisyan

# Ermənistan prezidenti amnistiya elan etməyi təklif edir

**Ermənistanın müstəqilliyinin 20-ci ildönümü ilə əlaqədar prezident Serj Sarkisyan parlamentə amnistiya elan etməyi təklif edib. Bu barədə Ermənistan prezidentinin mətbuat xidmətinin məlumatında deyilir. Ermənistan parlamenti sonuncu dəfə 2009-cu ilin iyunun 19-da amnistiya elan edib. Həmin vaxt yüzlərlə adam, o cümlədən 2008-ci il prezident seçkiləri ilə əlaqədar həbs olunan onlarla müxalifət fəalı amnistiyaya düşüb, ya da cəza müddəti azaldılıb.**

Aprelin 28-də Ermənistanın Milli Konqresinin mitinqində müxalifət hərəkatının lideri Levon Ter-Petrosyan əmin olduğunu bildirib ki, 31 maya kimi həbsdə qalan digər müxalifətçilər, həmçinin sabiq deputat Sasun Mikaelyan və "Aykakan jamanak" qəzetinin baş redaktoru Nikol Paşinyan azadlığa buraxılacaq. Ermənistan Müstəqillik Gününü 21 sentyabrda qeyd edir.

# ABŞ iranlı tələbələrə viza rejimini asanlaşdırır

İndən belə Birləşmiş Ştatlarda təhsil almaq istəyən iranlı gənclər 2 illik viza ala biləcəklər. İndiyədək iranlı tələbələrə yalnız 3 aylıq viza verilirdi. Bunu cümə günü Vaşinqtonda dövlət katibi Hillari Klinton bəyan edib. Hillari Klinton qeyd edib ki, ABŞ İranda real dəyişikliklərə yeni imkan açılmasını istəyir.

# Ebadi azərbaycanlıların hüquqlarının necə pozulmasını izah edir



Şirin Ebadi

***Tanınmış iranlı hüquq müdafiəçisi, Nobel Sülh Mükafatı laureatı Şirin Ebadi mayın 9-11-də Osloda keçirilmiş Azadlıq Forumunda "Turan" informasiya agentliyinin suallarına cavab verib. Həmin müsahibəni təqdim edirik:***

"Turan": **İranda insan hüquqları ilə bağlı vəziyyəti necə qiymətləndirirsiniz?**

Ş.Ebadi: Vəziyyət pisdir və kəskinləşməkdə davam edir. Bu, müəyyən dərəcədə ölkənin ali rəhbərliyindəki qarşıdurma, məsələn, parlamentin spikeri və prezident, həmçinin ölkənin ali lideri və prezident arasında açıq qarşıdurmalarla əlaqədardır. Lakin əsasən bu, dövlətin real vətəndaş azadlıqlarına imkan verməyən siyasətinin nəticəsidir. Son prezident seçkilərindən sonra məhkum olunmuş 100-dən çox siyasi məhbus var.

"Turan": **Forumdakı çıxışınızda milli azlıqların hüquqlarının pozulmasından danışdınız. İrandakı etnik azərbaycanlıların hüquqları barədə nə düşünürsünüz?**

Ş.Ebadi: İranda çoxlu etnik, dini qrup və cərəyan var. Bizim konstitusiyaya əsasən onlar öz doğma dillərində təhsil almaq hüququna malikdir. Lakin əslində isə bu hüquq təmin olunmayıb. Bundan əlavə, bu və ya digər etnik qrupun və ya millətin sıx yaşadığı regionlarda bu millətlərin nümayəndələri təmsil olunmayıb. Məsələn, Azərbaycan əyaləti rəhbərliyində etnik azərbaycanlı çətin taparsınız, halbuki onlar ölkə əhalisinin mühüm hissəsini təşkil edirlər.

"Turan": **Belə çıxır ki, azərbaycanlıların mədəni və sosial hüquqları pozulur?**

Ş.Ebadi: Azərbaycanlıların, kürdlərin, ərəblərin və digərlərinin hüquqları pozulur. Ölkə hakimiyyətinin siyasəti belədir.

"Turan": **Azərbaycan Respublikasında insan hüquqlarının vəziyyətini necə qiymətləndirirsiniz?**

Ş. Ebadi: Sizin vəziyyətlə bağlı kifayət qədər məlumatım yoxdur. Lakin bilirəm ki, orada ciddi problemlər var və bu haqda burada da danışıldı. Demək istəyirəm ki, keçmiş SSRİ məkanında vəziyyət çox pisdir. Mən Türkmənistanda və digər ölkələrdə olmuşam, hər yanda insan hüquqları sahəsində oxşar məsələlərin olduğunu görmüşəm. Azərbaycanda 90-cı illərin əvvəllərində, SSRİ dağılandan sonra olmuşam. Məndə belə təəssürat var ki, ölkənin dağılması ilə heç nə dəyişməyib. Keçmiş SSRİ respublikalarının bir çoxunda avtoritar diktator rejimlərdir və onları keçmiş DTK işçiləri və ya bu tipli adamlar idarə edirlər.

"Turan": **Kimləri nəzərdə tutursunuz?**

Ş.Ebadi: Putini, Əliyevi və başqalarını. Bu ölkələrin ümumi problemi ondadır ki, imperiyanın dağılmasına və müstəqilliyin elan olunmasına baxmayaraq, həmin ölkələr mahiyyətcə azad və demokratik ola bilməyiblər, adamlara isə əvvəlki kimi yaşamaq çətindir.

"Turan": **Ərəb inqilabı İrana və Azərbaycana necə təsir edəcək?**

Ş.Ebadi: Əlbəttə, təsiri olacaq. Hələlik hansısa fikir söyləmək çətindir. Ancaq dünya çox tez və sürətlə dəyişir, adi proqnozlar və ya rəylər çox zaman uyğun gəlmir. Zənnimcə, biz ciddi dəyişikliklərin astanasındayıq.

"Turan": **Azərbaycana gəlmək istərdiniz?**

Ş.Ebadi: (Azərbaycan dilində cavab verir, lakin yenidən fars dilinə keçir). Mən çox məşğulam... Amma Azərbaycana gəlib sizin necə yaşadığınızı görmək istərdim.

**AzadliqRadiosu.az saytında daimi rubrika:**






## Парламент Грузии принял резолюцию "о геноциде черкесского народа"

**Парламент Грузии единогласно утвердил резолюцию, в которой события 19-го века на северо-западе Кавказа квалифицируется как "геноцид и этническая чистка черкесского народа царской Россией". Речь идет о русско-черкесской войне, продолжавшейся в течение столетия - с 1763 по 1864 год.**

Председатель парламентского комитета по делам Северного Кавказа и диаспоры Нугзар Циклаури заявил, выступая перед депутатами, что "историческая" резолюция стала итогом годичной работы с привлечением крупнейших грузинских и иностранных учёных.

Некоторые депутаты требовали внести в резолюцию и оценку событий в Чечне за последние 20 лет и также квалифицировать их как геноцид.

Оппозиционные же депутаты призывали коллег к осторожности и намекали, что решение может осложнить отношения, например, с Арменией, ведь армянская диаспора Грузии также ставила вопрос о признании событий в Османской империи "геноцидом армян".

Во время голосования в зале заседаний присутствовали представители черкесских диаспор. Они встретили решение законодательного органа стоя, – не скрывая своей радости, сообщает Радио Свобода.

## «AZADLIQ» RADİOSU SƏNİN MOBİL TELEFONUNDA

AzadlıqRadiosunu indi mobil telefon, PDA və başqa simsiz qurğularda da oxumaq olar. Özü də ancaq yazıları oxumaq deyil, həmçinin proqram və verilişləri dinləmək, videolara baxmaq mümkündür. Bu ünvana daxil olub yoxlayın bir:

*http://www.azadliq.mobi/*

# Rəsulzadəni tanıdı, Sibir sürgünündən qaçdı, Hitlerə məktub yazdı...




Əziz Alpoud adı sizə nə deyir? Yəqin ki, bir çoxunuza heç nə. Amma o, kimlərlə ünsiyyətdə olmayıb – Məhəmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Ənvər Paşa, Atatürk və başqaları. O, Azərbaycan Xalq Cümhuriyyətinin yaranışını və süqutunu görüb. Azərbaycan ordusunu yaradanların sırasında olub. Məxfi tapşırıqlarla sərhədlər keçib. XI Qırmızı Ordunun Azərbaycanı işğal etdiyi günü və saatı olduğu kimi qələmə alıb. Bolşevik ordusunun Azərbaycanda törətdiyi qanlı cinayətlərin şahidi olub. Gizli təşkilatın liderlərindən biri kimi bolşevizmlə mübarizə aparıb. Sonra həbsxana, güllələnmə hökmü, sürgün, Moskva həbsxanasında Çiçerinlə ideoloji mübahisələr və daha sonra Sibir... Qurtuluş... Mühacirət...

Əsl adı Mirədbdüləziz Seyiddir. 1895-ci ildə Azərbaycanda anadan olub və 93 yaşında mühacirətdə vəfat edib. Onun az qala bir əsrə şahidlik edən xatirələrini araşdırmaçı Zakir Sadatlı qürbətdə əldə edərək çapa hazırlayıb. "Həyatımın hekayətləri" adlanan kitabı "Qanun" nəşriyyatı çap edib.

Onun Sibir sürgünündən necə inanılmaz yolla qurtulması, ailə faciəsi, öz azadlığına doğru min kilometrlərlə velosipedlə getdiyi yol, Adolf Hitlerə məktubu və aldığı cavab, Atatürklə dostluğu, Alparslan Türkeşlə əqidədaşlığı, Azərbaycanın dünya boyu səpələnmiş istiqlal mücahidləri ilə sıx əlaqəsi kitabda son dərəcə təsirli şəkildə təsvir edilir. Əlyazma ilk dəfədir ki, kitab şəklində nəşr olunur.

***Qanun.az***

# Dünya bestselleri Azərbaycan dilində




Book by Khaled Hossein

**Tariblərin idarə etdiyi Əfqanıstan. Maliyyəsi tükənən bir yetimxana. Yetimxananın çıxılmaz vəziyyətdə qalan direktoru... O, uşaqların qarnını doyurmaq üçün dəridən-qabıqdan çıxır. Axırda... bir yol qalır. Bu çıxış yolu yetimxanadakı qızlardan bəzilərini bir "xeyriyyəçi" talibançının yanına göndərməkdir...**

Amma direktor özünə bəraət qazandırır... Bu roman birnəfəsə oxunur. Əfqanıstanın özü kimi dolanbac, ziddiyyətli və qəddar bir mühitdə ard-arda baş verənlər insanda yalnız bir sual doğurur:

Doğrudanmı, bu ölkədə belə şeylər olur? Əfqan əsilli Amerika yazıçısı Xalid Hüseyninin dünya bestselleri olan "Çərpələng uçuran" romanı Azərbaycan dilində də çap edildi. Kitab "Əli və Nino" nəşriyyatında çap olunub. Kitabın tərcüməsi Bakıda Amerika səfirliyi tərəfindən maliyyələşib. Kitabı Xədicə İsmayıl tərcümə edib. Mayın 27-də saat 17 00-da "Əli və Nino" kitab evində (İçərişəhər, Qız Qalasının yanında) romanın təqdimatı olacaq. 1970-ci ildə Əfqanıstanda dünyaya göz açan Xalid Hüseyni 1976-cı ildə ailəsi ilə birlikdə Fransanın paytaxtı Paris şəhərinə köçüb. Sonradan isə onlar ABŞ-dan siyasi mühacir kimi sığınacaq alıblar. Kaliforniya ştatının San-Xose şəhərində böyüyüb başa çatan Xalid buradakı universitetin tibb fakültəsini bitirib. "Çərpələng uçuran" romanıyla Amerikada və bütün dünyada məşhurlaşan yazıçı, hal-hazırda dünyanın ən çox müzakirə edilən qələm adamlarından biridir. "Çərpələng uçuran" 2005-ci ildə ABŞ-da ilin bestselleri seçilib. Hüseyni hal-hazırda BMT-nin qaçqınlarla bağlı xoşməramlı səfiridir və o, xanımı Röya və iki uşağı ilə birgə Cənubi Kaliforniyada yaşayır.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Putini ələ salan pyesə qadağa qoyuldu**



**İlham Əliyev Oljas Süleymenova "Dostluq" ordeni verdi**



**Fransız yazıçısı da BVF rəhbərini seksual qısnamada suçladı**



**"Beynəlxalq Buker" mükafatının qalibi açıqlandı**



CAVİDAN: **Kişinin ölümü...**

# «Mən diktator qızı deyiləm"

## Özbəkistan prezidentinin qızının "Rue89.com" saytı ilə məhkəmə davası başladı

**Parisdə "Rue89" saytına qarşı məhkəmə prosesi başlayır. Saytı məhkəməyə Özbəkistan prezidenti İslam Kərimovun kiçik qızı - Özbəkistanın UNESCO-dakı nümayəndəsi Lola Kərimova-Tillyaeva verib.**

Prezidentin qızı saytda çap edilmiş məqalədə onun "diktator qızı" adlandırılmasına etiraz edir. Yazıda bildirilir ki, xanım Kərimova-Tillyaeva xeyriyyə tədbirləri təşkil etmək və Qərbin tanınmış şəxslərinə pul paylamaq yolu ilə "ölkəsinin imicini təmizləməyə çalışır".

Prezidentin qızı bunu böhtan adlandıraraq saytın mənəvi ziyana görə 30 min avro ödəməsini tələb edir. Məqalə keçən ilin mayında dərc edilib. Orada İslam Kərimovun böyük qızı Gülnarənin keçən il Kann festivalı çərçivəsində təşkil etdiyi və "Kino AİDS-ə qarşı" adlanan xeyriyyə tədbirindən söhbət gedir.

**MONİKA BELUÇÇİYƏ 190 MİN DOLLAR?**

Məqalədə iddia edilir ki, bundan qabaq – həmin ilin fevralında prezidentin kiçik qızı Lola başqa bir xeyriyyə tədbirində iştirak etməsi üçün tanınmış aktrisa Monika Beluççiyə 190 min avro pul ödəyib.

Sayt yazır ki, prezidentin qızları AİDS-ə qarşı mübarizə adı altında Özbəkistanda insan haqlarının pozulması hallarını pərdələməyə çalışırlar. "Halbuki Özbəkistanda Maksim Popov adlı şəxsi AİDS-lə mübarizə metodları haqda materiallar yaydığı üçün tutublar. Onu "Özbək xalqının mənəvi dəyərləri, dini görüşləri, ənənələri ilə uyğun gəlməyən materiallar yaydığı üçün" həbs ediblər. Maraqlıdır ki, Kərimova-Tillyaeva öz məhkəmə iddiasında Popovla bağlı yazılanlara etiraz etmir.



Fransa - (sağdan sola) Lola Kərimova-Tillyaeva, fransız aktyoru Alen Delon və italyan aktrisası Monica Bellucçi Özbəkistanın təşkil etdiyi xeyriyyə tədbirində

Məqalə müəllifi Augustin Scalbert AzadlıqRadiosunun özbək xidmətinə müsahibəsində deyib ki, yazdıqlarını təkzib etmək fikri yoxdur. Jurnalist iddia edir ki, yazdıqlarını sənədlər də təsdiqləyir. Scalbert məhkəmənini onun xeyrinə qərar çıxaracağına inanır "Çünki



Lola Kərimova-Tillyaeva

Fransa söz azadlığına hörmət edən bir ölkədir".

Jurnalist deyir ki, Fransa mediasında Lola Kərimovanın "diktator qızı" olması haqda yazı dərc etdirməsi qanunlara zidd deyil. "Sadəcə qanuna görə, bizim bunu demək üçün əlimizdə sübut olmalıdır. Bizim üçün də bunu sübut etmək asandır. Çünki 6 il bundan qabaq Özbəkistanda "Əndican faciəsi" törədilib - hökumət qüvvələri dinc nümayişçiləri qətlə yetiriblər. Rejimin çoxlu sayda opponenti həbsə atılıb, onlara işgəncə verilib".

**ÖZBƏKİSTANDAN OLAN HÜQUQ MÜDAFİƏÇİSİ DƏ İFADƏ VERƏCƏK**

Məhkəmədə ifadə verəcək şəxslərdən biri də Özbəkistandan olan hüquq müdafiəçisi Mutabar Tojiboeva-dır. Onu da vaxtilə Özbəkistanda hökumət rəsmilərinə böhtan atmaq və qanunsuz aksiya təşkil etməkdə günahkar bilib həbs etmişdilər. İndi o, Avropada yaşayır.

# Qətərin dünya çempionatını keçirmək hüququ əlindən alına bilər



FİFA-nın prezidenti Sepp Blatter

**TƏZƏDƏN SƏSVERMƏ OLA BİLƏR**

FİFA-nın prezidenti Sepp Blatter mayın 19-da bildirib ki, korrupsiya barədə çoxsaylı ittihamlar, o cümlədən də "The Sunday Times" qəzetinin yaydığı məlumatlar təşkilatın İcraiyyə Komitəsinin bu çempionatla bağlı yenidən səsvermə keçirilməsinə gətirib çıxara bilər. "The Sunday Times" qəzetinin əməkdaşları özlərini böyük bir ABŞ şirkətinin nümayəndələri kimi təqdim edərək 2018 və 2022-ci illərin Dünya çempionatlarının keçirilməsi ilə bağlı səsvermə üstündə FİFA rəsmiləri ilə sövdələşiblər. Qəzet bu yaxınlarda həmin araşdırmasının nəticələrini təqdim edib. FİFA-nın 75 yaşlı prezidenti jurnalistlərin bu araşdırmalarının yekunlarına dair hələlik şərh vermir, bildirir ki, özləri də məsələni öyrənirlər. Əgər qanunsuzluq aşkar edilsə, genişmiqyaslı addımlar atacaqlar.

**1 SƏSƏ 11 MİLYON AVRO?**

Keçən ilin dekabrında "Newsweek" jurnalının əməkdaşı Jonatan Alter də özünün etibarlı mənbələrinə istinadla Twitter səhifəsində yazırdı ki, 2022-ci ilin futbol üzrə Dünya çemionatının Qətərdə keçirilməsinə səs vermələri üçün FİFA-nın İcraiyyə Komitəsinin üzvləri milyonlarla dolalr rüşvət alıblar. Onun iddiasına görə, təkcə Zinəddin Zidan Qətərə səs vermək üçün 11 milyon avro pul alıb.

FİFA prezidenti vəzifəsinə yeni seçkilər də gələn ay – iyunun 1-də keçirilməlidir. Bu seçkidə indiki prezident Blatterin rəqibi də əslən Qətərdən olan Asiya Futbol Konfederasiyasının prezidenti Mohammad ibn Hammam olacaq. Bundan əvvəl İngiltərə Futbol Assosiasiyası bu səsəvemədə iştirak etməyəcəyini bildirib.

# "2025-ci ilə dolların hegemonluğu bitəcək"



Dünya Bankının yeni hesabatına görə, 2025-ci ilə qlobal iqtisadiyyatda dolların hegemonluğu bitəcək. O vaxta yeni çoxvalyutalı monetar sistem yaranacaq. Həmin sistemdə avro və başqa bir neçə valyuta bərabərhüquqlu yer tutacaqlar. "Çox qütblülük: Yeni qlobal iqtisadiyyat" adlı hesabatda deyilir: "Dünya iqtisadiyyatında bu dəyişikliyin aparıcı qüvvəsi təşəkkül tapan və ya inkişafda olan yeni bazar iqtisadiyyatlarıdır- Braziliya, Çin, Hindistan, İndoneziya, Rusiya və Cənubi Koreya. Bu iqtisadiyyatlar 2025-ci ilə kimi ildə 4,7 faiz sürətilə artmalıdırlar".

Dünya Bankının yeni hesabatının müəllifi M. Dailami deyir: "Dünyada artım və investisiya balansı inkişafda olan və ya yaranmaqda olan iqtisadiyyatlara yönələcək". Bunun isə çox geniş təsiri olacaq. Hazırda dünyanın əsas ehtiyat valyutası dollardır. Dollar dünyanın əsas ehtiyat valyutası rolunu itirəcək. Hesabat avronu dolların ən etibar oluna bilən rəqibi hesab edir. Ancaq avronun güclənməyinə bir şərt qoyulur: "Avro zonada ölkələrin borc problemləri həll olunmalıdır".

# Rejissoru Kann festivalından qovdular



Danimarka rejissoru Lars fon Trier Fransada keçirilən Kann kinofestivalında "arzuedilməz şəxs" elan edilib. Kinofestival rəhbərliyinin belə bir qərar verməsinin səbəbi onun çərşənbə günü keçirdiyi mətbuat konfransında nasist lideri Hitlerə simpatiyasının olduğunu deməsidir. Sonradan üzr istəyib sözlərinin zarafat olduğunu desə də, rejissoru bağışlamayıblar. Hələ ki, qalmaqallı rejissorun "Melanxoliya" filminin festivalda nümayiş etdirilib-etdirilməyəcəyi bəlli deyil.2000-ci ildə Trier "Qaranlıqda rəqs edən" filminə görə Kann kinofestivalının mükafatına layiq görülmüşdü.

# Kilsəni məscidə çevirirlər

İsveçin Flen adlı kiçik şəhərində xristian icmasına məxsus kilsəni müsəlmanlara satmaq qərarına gəliblər. Bu kilsə ötən ilin noyabrında satışa çıxarılıb. İnzibati binaya kəskin ehtiyacı olan Al-Xuda İslam mərkəzi də obyekti almaq qərarına gəlib. "Local" jurnalı yazır ki, Flen şəhərindəki iki xristian icması birləşəndən sonra onlara aid binalardan biri boş qalıb. Ona görə də kilsələrdən birini satışa çıxarıblar.

Amma binanın keçmiş sahibi, xristian icmasının rəhbəri Kristina Blumkvist deyir ki, kilsəni məhz müsəlmanlara satmaq qərarını asanlıqla verməyiblər: "Amma yenə də biz hər şeyi götür-qoy edəndən sonra razılıq verdik. Fikirləşdik ki, bu jestlə biz müsəlmanlara öz sevgimizi göstərmiş olacağıq", – deyə Blumkvist bildirib.

# AzadlıqRadiosunda verilişlər:

_Unutmayın:_ Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

## Daimi rubrikalar













# "Simsiz teleqraf"

## "Neftçi"-"Xəzər Lənkəran" görüşündə qarşıdurma (video)



18.05.2011 tarixində "Neftçi"-"Xəzər Lənkəran" 1-1 qarşılaşmasında polis azarkeşləri zorla dağıdır, xeyli yaralılar olub. **Yükləyib:** HAFİZ

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

HotBird 13$^0$E

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

24 saat

42$^0$ E

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Azadlıq Radiosu rus dilində

## Radioazadlyg.org




## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz